

Oqtay Əliyev,
Yazıçı publisist

# Sözə fərqli baxış

## Əlahəzrət SÖZ!..

**Mübarək qüdrətli sözlər könüllərdə yaranır, müqəddəs ocaqdan pərvazlanır, əql-düşüncə süzgəcindən keçir, nizamlanır, düzənlənir, möhkəmlənir. Şəxsiyyətin əxlaqı onu əqidə və mərifətinə uyğun nizam-tərəzidə ölçür, yönləndirir.**

Insan Günəş tək nur, şəfəq saçanda, Ay kimi bədirlənəndə, düşüncəyə, səsə bələnəndə də sözə sığınır. Sevinəndə, qəhər onu boğanda, qəlbi kükrəyəndə də, bir xoş sözə möhtac duyur bəşər övladı.

Hər bir sözün özünə məxsus rəngi var. Həm də hər sözün öz aləmi, ləngəri, tutumu, çalarları, ritmi,hədəfi və ümid verən nuru var. Sözün butası, qayaqlı, naxışlı duruşu, gəlişi-gedişi, kükrəyişi, uzun ömrü var.

Müdrikcəsinə deyilən söz ildırım kimi çaxan xınalı köhlənlərtək möhtəşəmdir. Dünya durduqca əqlin, düşüncənin sərhədlərinə doğru təzadlar məngənəsində dörd nala çapır söz.

## Söz, yayından çıxmış ox kimidir

**Geriyə qaytarmaq mümkünsüzdür. Məqamında, yatımında deyilmiş söz bərədə dayanmış ovçunun uğuru kimi əzizdir, şirindir.**

**Söz var insanı ruhlandırar, dağlara, uca zirvələrə qaldırar, çiçəkli çəmənlərə aparar, insana xoş həyat bəxş edər, onu yaşadar, həyatına yeni çalarlar verər, insanı cəngavər və qəhrəman edər...**

**Dağdan ağır sözləri şan-balnan da yemək olmur...**

**Söz də var insanı qatil edər, insanı uçurumun sahillərinə çəkər, onu məhv edər.**

**Məkrli söz insanı haqq yolundan sapındırar, onun həyatını bitirər.**

***

Xoş sözün əsil qiyməti ölçüyə gəlməz...

Əsil insana xas olan mehr-məhəbbətli, işıqlı həyat yolunu göstərən, əqidə və düşüncəyə nur verən müdrik sözlər dühalığı şərtləndirir.

Belə deyərlər ki, diş dilin qapısı, sirr saxlayan hasarıdırsa, söz səsin övladı, ürəklərin açarıdır.

Elə sözlər olur ki, dərin sirli-soraqlıdır. Sirr saxlamaq qabiliyyəti müdrikliyə, ağsaqqallığa, şəxsiyyətin bütövlüyünə dəlalət edir. Elə olur ki, deyilən sözü sirli saxlamaq kiminsə həyatını yaşadır, taleyini qoruyur, şəxsiyyətini müəyyənləşdirir.

Sirr saxlamaq qabiliyyətinin insan mənəviyyatında öz yeri var. Bəzən təcrübədən irəli gəlir, ya da ki, insanın həyatı boyu əxz etdiyi böyük məna və məntiqin, qeyrət və kişiliyin xüsusiyyətlərindəndir--fenomendir.

## Sirli söz bir dünya,

məkanı dərin, özü sirli-soraqlı bir aləmdir. Sirli sözün öz fəlsəfəsi, məna tutumu vardır. Sirli nə varsa, məkanı əlçatmaz ənginliklərdə, yerin təkindədir. Insanın fəlsəfi düşüncəsi, sirli sözün dəyanətini qorumaqla yanaşı həyatın axarına uyğun nizamlana bilir. Sirli sözün izharı hədəqədən çıxanda fəlakətlər törənər, ellər qan çanağına dönər. Yel kimi ötüb-gedən, nəştər olub dəlib keçən, yarpaq üstə yazılan kəlamların, dürlüdürlü sözlərin qınağı, söz yarası yüz illər gedər.

Ona görə də, sözü qoyma əyərli ola, qədrini bilənə və qədərində desən, uğurlu olar.

Xoş duyğular, qəzəb, nifrət və insanın ali hissləri sözün qüdrəti ilə ifadə olunur. Sözün sehrindən qurtulmaq çətin olsa da, ondan doymaq da olmur. Söz də sevimli və əziz insanlar kimidir. Sözün böyük qüdrəti, qılıncdan iti kəsəri olduğu kimi, könül oxşayan nəğmələrdə qanadlanan sözlərin həm də incə, məlhəm, zərif gül tək lətafəti vardır!

Söz insanı idarə etməyə qadir sərkərdədir.

Xoş niyyətlə deyilmiş dürlü-dürlü söz insanları xeyirxahlığa, humanizmə, Vətən, ata-ana sevgisinə, haqq-ədalətə tapınmağa səsləyir...

Söz, səndə düşüncə qüdrəti və sürəti var ki, dünya-aləm hələ də, ölçüsünü tapa bilməyib...

Xoş söz həmişə bağlı qapıların açarıdır.

**Axı, insan ömrü nə qədərdir ki?! Odur ki, Tanrının hər kəsə bəxş etdiyi bu ömrü şərəflə, ləyaqətlə, insana xas olan gözəl məramla yaşamaq üçün xeyirli fikrə, xeyirli sözə, xeyirli arzulara, xoş əməllərə aparan münasibətlərə, qarşılıqlı anlaşmalara rəvac verin. Öz həyatınızı çalışın xoş və mənalı keçirin, nurlu bir ömür qismətiniz olsun!..**

Düşündüyünü sözə bələyib kağıza köçürən qələm sahibinin sözünə qüvvət: Ey böyük qüdrət sahibi, olduqca təzadlı, möhtərəm əlahəzrət SÖZ! Axı, sən kiminsən, nəsən, nəçisən, kimlərə məxsussan?!.

Dürlü-dürlü sözlər özünün yenilməz qüdrəti və Şahpalıt əzəməti ilə əbədi yaşardır!...

Əlahəzrət söz həm də həyat həqiqətlərini yaşadır və nəsillərə ərmağan edir!...

## Sözün qüdrəti, kəlamın hikməti

*Təbiət gözəlliklərini yaradan düşüncə kimi insanlar da müdrik olmalıdırlar.*

***

*Dünya sivilizasiya keçib, çox yeniliklər var: insan, geninin kodu açılıb, elmi, kosmik nailiyyətlər çoxdur. Lakin, xoşbəxt yaşamağı hələ də öyrənməmişik...*

***

*Arzu və istək bizim içimizdə yaranır.*

***

*Adamı incə dirijor çubuğu ilə ovsunlayıb, məhvərindən çıxarır, sonra isə zopa ilə vururlar.*

***

*Mənəvi saflıq insanı ucaldar.*

***

*Yüksək mənəviyyat şərəfli həyatın meyarıdır.*

***

*Elələri var ki, cəsarət edib evində deyə bilmədiyini kütlələr qarşısında açıqlayırlar.*

***

*Qəlbində nifrət gizlədəndə öz qarşısına çıxar.*

***

*Söz əbədiyaşardır, həm də bəşəriyyəti yaşadır!..*

***

*Günahdan uzaq olun, yalnız xeyirxahlıq ucaldar sizi.*

***

*Yaxşı işlər görənə haqsızlıq etməzlər.*

***

*Ehtiyac ucundan bəd əməllərə qurşanmayın.*

***

*Ağıl, düşüncə başda olur, başınızı həmişə uca tutun!*

***

*Müdriklərin öyüd-nəsihətinə qulaq asmaq xeyir gətirər.*

***

*Təkəbbürlük insanı ucaltmaz.*

***

*İnsanları haqq yolundan sapındıranlara aman verməyin!*

***

*Zəfər də, məğlubiyyət də əqil və düşüncənin gücündədir.*

***

*Dünya malından yüksək olan ad-sana çatmaq daha şərəflidir.*

***

*Dəyərli ziyalılar xalqımızın mənəvi sərvətidir.*

***

*Özündən hesab istə: biz əsrləri düz yolla getmişikmi? İndi haraya və necə gedirik!?*

***

*Arzu və istək, ehtiyac, düşdüyün çətinliklər insanı yeni həyata ruhlandırır.*

***

*İnsan inkişaf etdikcə onun təzahürlərində təbiətdən və yaradandan daha çox uzaqlaşırıq...*

***

*Bizdən sonra qalanları işgüzar, xeyirxah dostlarla qurub-yaratmışıq. Zaman özü qiymətləndirəcək.*

***

*Yaltaqlığı da hörmətdən salıblar. Vaxt vardı yaltaqlıqla ailə-uşaq, ev-eşik saxlayardılar, hörmət-izzəti də öz yerində.*

*Məddahlıq indi daha şıdırğı gedir. Vay bizim halımıza.*

***

*Qızıl-zinət əşyaları hərisliyi, varlanmaq ehtirası adamları insanlıqdan çıxarır, milli-mənəvi dəyərlərimizə zərbə vurur.*

***

*İnsan bir əşyasını itirirsə, onu hər yerdə, həmişə axtarır. Lakin, bəzi insanlar şəxsiyyətini itirdikdə, çox təəssüf ki, onu heç yerdə axtarmırlar. İnsan şəxsiyyəti isə hər şeydən ucadır!*

***

*Dağılmış iqtisadiyyatı bərpa etmək olar, məişətimizi daha da gözəlləşdirmək üçün yaraşıqlı binalar ucaldılar, parklar düzənlənər, lakin çirkaba bulaşmış mənəvi əxlaqı yenidən saflaşdırmaq olduqca çətin məsələdir.*

***

*Ağsaqqal var, sözü bir dürdür!*
*Ağbirçək var, özü bir nurdur!*
*Ağsaqqal, ağbirçək qədrini bilin!*

***

*İnsanı mükəmməlliyə aparan dəyərlər çoxdur: haqq-ədalət, ədəb, yaranmışlara məhəbbət, Vətən, ata-ana sevgisi, mərhəmət, dostluq, həqiqət, səxavət, mərifət, bacarıq, istedad və zəhmət insan mükəmməlliyinin məhək daşıdır.*

***

*İnsanlar qəti əmindirlər ki, nə din, nə də elm ən mühüm həyatı sullara cavba verə bilməz.*

***

*İlahi, bu mürəkkəb və təzadlı dünyadan baş çıxarmaq üçün mənə müdriklik ver!*

***

*Qurani-Kərim və islamın insanlara bəxş etdiyi bəşəri duyğular dünyanın əşrəfi olan, mübarək insani xüsusiyyət böyük tərbiyəvi mahiyyət daşıyır və mənəvi dəyərlərin fövqündə durur.*